**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ANA DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN FƏALLIĞINI TƏMİN ETMƏKDƏ İNTERAKTİV TEXNOLOGİYANIN ROLU

İxtisas: 5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası)

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Gülşən Kamal qızı Mehdizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqogika üzrə fəlsəfə doktoru, professor
**Nadir Əziz oğlu Abdullayev**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**İsmayıl Oruc oğlu Məmmədli**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Ənvər Məhəmməd oğlu Abbasov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Asif Xatabala oğlu Hacıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: Tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: Pedaqogika elmləri doktoru, dosent
**Vaqif Tapdıq oğlu Qurbanov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Metodistlərin araşdırması təcrübə göstərir ki, sosial-mədəni, iqtisadi-siyasi sahələrdə inkişafın səviyyəsi təhsilə münasibətlə ölçülür. Bu mənada ölkədə təhsil islahatı proqramı 1999-cu ildən həyata keçirilməyə başlamış və neft kapitalını insan kapitalına çevirmək istiqamətində dünya bankının dəstəyi ilə təhsil kurikulumuna keçid və fəal təlim texnologiyalarına əsaslanan Boloniya prosesi əsasında milli təhsil sistemi yaradılmışdır[1].

2008-ci ildən başlayaraq ölkəmizdə ibtidai təhsil səviyyəsi dövlətin qəbul etdiyi təhsil standartları əsasında yazılmış dərsliklər və dərsliyə dair tərtib edilmiş müəllimlər üçün metodik vəsaitlərlə işləyir. Hazırda bu ardıcıllıq XI sinfə qədər gəlib çatmış və uğurla da həyata keçirilməkdədir.

Kurikulum əsasında hazırlanmış dərslikləri və onlara dair metodik vəsaitləri ənənəvi proqram və dərsliklərdən fərqləndirən əsas cəhətlər təlim prosesində tətbiq olunan yeni metod və texnologiyalarla əlaqədardır.

On dörd ildir ki, Azərbaycan dili təliminin məzmunu, ənənəvi qaydalarda olduğu kimi, əsasən dil qaydalarından, yəni səs, söz, söz birləşməsinə dair məlumatlardan ibarət deyil, rabitəli nitq, oxu, yazı və dil qaydaları üzrə iş sistemindən ibarətdir. Bunlar da kurikulum təhsilində dinləmə-anlama və danışma, oxu, yazı və dil qaydası məzmun xətti adlanır.

Hazırda təlimin təşkilində interaktivlik yaradan cütlərlə, qruplarla iş əsasında fərdi və kollektiv tapşırıqlar, çalışmalar; BİBÖ, Venn diaqramı, klaster, dialoq-diskussiya, ümumiləşdirmə və s. ilə qurulan metodlardan istifadə olunur[2].

Məzmun xətti əsasında yazılmış dərsliklər xüsusi quruluşa malikdir və hər bir mövzu dövlət standartlarını əsas tutaraq, rabitəli

---

[1] Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) // – Bakı: Kurikulum, –2008. №1, –s.5.

[2] Ağayev, Ə.A. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // – Bakı: ARTPİ-nin Elmi əsərləri, – 2006. №1, – s.37.

mətnlər vasitəsilə şagirdlərə informativlik və kommunikativlik vərdişləri aşılayır.

Fənn kurikulumunun hər birində müvafiq fənnin məqsədinə uyğun şəkildə onun həyata keçirilməsini təmin etməyə imkan verən məzmun qurulur. Fənnin məzmunu məzmun xətlərinin məcmusu kimi formalaşdırılır. Buna görə fənnin məqsədi məzmun xətlərinin tətbiqi kimi bir daha konkretləşdirilir. Sonrakı mərhələdə fənnin məqsədi standartlar şəklində ifadə olunur. Məzmun standartları məqsədlərin ifadə formalarından biridir və fənn kurikulumlarında müəyyən edilən ən konkret tətbiq nümunəsidir. Dərsin məqsədi bilavasitə məzmun standartları ilə bağlıdır və onlara nail olunmasına xidmət göstərir. Məzmun standartları əsasında dərsin məqsədinin müəyyən olunması fənn müəllimindən kifayət qədər hazırlıq tələb edən məsələdir.

İbtidai siniflərdə Azərbaycan dili fənninin məqsədi şagirdin aşağıdakı bacarıqlara yiyələnməsidir:

- sərbəst şəkildə düzgün, sürətli, həm də şüurlu və ifadəli oxumaq və yazı savadı;
- dialoqa girmək, fikirlərini sərbəst şəkildə ardıcıl olaraq ifadə etmək;
- oxuyub, dinlədiyi mətnlərə fikrini bildirmək;
- müxtəlif mətnlərdən əsas hesab olunan faktları seçmək, qruplaşdırmaq, kiçik həcmə malik mətnləri qurmaq;
- xalqımızın dil, mədəniyyət, tarix, incəsənət, adət-ənənələr və əxlaqi-mənəvi dəyərləri barəsində ilkin bilikləri sadə şəkildə ifadə etmək olar.

Azərbaycan linqvodidaktlarından Ə.Əfəndizadə, H.Balıyev, B.Əhmədov, Y.Kərimov, N.Abdullayev və b. öz əsərlərində bu məsələni geniş təbliğ etmişlər.

Azərbaycan dilinin tədrisi metodikasına dair texniki təlim texnologiyalarından istifadə metodikasına aid qiymətli fikirlər şərh olunmuşdur. Bu sahədə prof. H.Balıyevin fəaliyyətini xüsusi qeyd edə bilərik. Eyni sözü prof. N.Abdullayevin texnoloji didaktikası haqqında da deyə bilərik. Onun şagirdlərdə düzgün tələffüz normalarının formalaşdırılması ilə bağlı texniki təlim vasitələrindən

istifadə prinsipləri metodist alimlərin diqqətini özünə cəlb etmiş və alimin yaratdığı nümunələr kütləviləşmişdir.

Adlarını çəkdiyimiz tədqiqatçıların rəhbərliyi altında son illərin tələblərinə uyğun tədqiqatlar aparıb uğurla müdafiə edən alimlərdən Pəri Paşayeva[3], Şəlalə Nəbiyeva[4], Gültəkin Abdullayeva[5], Sədaqət Hüseynova[6], Esmira Məmmədova[7], Bəsti Seyidzadə[8] və başqalarını göstərə bilərik.

Keçən əsrin sonları və XXI əsrin əvvəlləri dil təlimində sıçrayışlar və tətbiqlər dövrü kimi tarixə çevirməyə başladı ki, bu da İKT-dən səmərəli istifadə adlanır. Lakin İKT nə qədər potensial didaktik imkanlara malik olsa da, ümumilikdə texnoloji inqilabın bütün komponentlərini özündə əks etdirə bilməzdi. Çünki texnologiya çox geniş anlayışdır. Bu arsenal yeni təlim metodologiyasını, o cümlədən təlim prosesini tədqiqat meydanına çevirən laboratoriyaları xatırladır, şagirdi subyektə, elmi bilikləri obyektə çevirir. İntensiv təlim güclü, surətli, qarşılıqlı təlim əməyi əməkdaşlıqla, habelə qruplar arasında cərəyan edən təlim prosesi deməkdir. Onun dörd məzmun xəttinə uyğun metod, üsul, vasitə və rəngarəng iş formaları var. Metodların seçilib tətbiq olunması standartlarla, standartlar isə məzmun xətləri ilə şərtlənir. Müasir Azərbaycan dili təlimini əhatə edən, yeni təlim metodları sanballı tədqiqat əsərləri də vardır. H.B.Balıyev, A.H.Balıyevin "Azərbaycan dilinin tədrisi

---

[3] Paşayeva, P.Ş. İbtidai siniflərdə fonetikanın tədrisinin elmi-metodik əsasları: / pedaqogika üzrə fəlsəfə doktoru dis. avtoreferatı / − Bakı, 2004. − 28 s.

[4] Nəbiyeva, Ş.Z. İbtidai siniflərdə folklor nümunələrinin tədrisi yolları: / pedaqogika üzrə fəlsəfə doktoru dis. avtoreferatı / − Bakı, 2004. – 27 s.

[5] Abdullayeva, G.A.İbtidai siniflərdə şagirdlərin nitqinin ifadəliliyi üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dis. avtoreferatı / − Bakı, 2010. – 21s.

[6] Hüseynova, S.M. İbtidai sininflərdə sintaksis elementlərinin təlimi prosesində nitq inkişafı üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dis. / − Bakı, 2008. −141 s.

[7] Məmmədova, E.F. İbtidai siniflərdə morfologiyanın tədrisi prosesində nitq inkişafı üzrə işin sistemi: /pedaqogika üzrə fəlsəfə doktoru dis. avtoreferatı / −Bakı, 2014. – 26 s.

[8] Seyidzadə, B.M. İbtidai siniflərdə Azərbaycan dilinin başqa fənlərlə əlaqəli tədrisi üzrə işin təşkili: / pedaqogika üzrə fəlsəfə doktoru dis. avtoreferatı / − Bakı, 1995. − 22 s.

metodikası" dərsliyində metod və üsulların təsnifi; fəal (interaktiv) təlim, fəal təlimin metod və texnikaları, məzmun standartları, informasiya-kommunikasiya texnologiyalarından, habelə Azərbaycan dili tədrisi metodikasından əlavə istinad cədvəllərindən istifadə məsələləri nəzəri və təcrübi müstəvilərdə öz geniş əksini tapmışdır[9].

İndiki vaxtda isə fəal təlim texnologiyalarının tətbiqi və metodologiyası ilə bağlı təhlillərin aparılmasına ehtiyac var ki, bu da bizim tədqiqatın aktuallığını göstərən şərtlərdəndir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ibtidai siniflərdə Azərbaycan dili təlimi prosesidir. Tədqiqatın predmeti I-IV siniflərin üzrə Azərbaycan dili dərslərində şagirdlərin fəallğını təmin etməkdə interaktiv texnologiyadan səmərəli istifadə metodikasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi I-IV siniflər üzrə Azərbaycan dili tədrisində şagirdlərin idrakını və nitq fəallığını təmin etməkdə ən səmərəli texnologiyaları və onların tətbiqinin eksperimental yollarla didaktik əsaslarını müəyyənləşdirməkdən, geniş təcrübə üçün innovativ təkliflər hazırlamaqdan ibarətdir.

Tədqiqatın vəzifəsi kurrikulum təhsilinin mahiyyətini açıqlamaqdan, o cümlədən ibtidai siniflər üzrə Azərbaycan dili dərslərində şagirdləri fəallaşdıran texnologiyaların düzgün seçimini etmək, tətbiqinin eksperimental nəticələrini meydana çıxarmaq üçün məktəblərdə vəziyyəti yoxlamaq, dərslikləri, metodik rəhbərlikləri araşdırmaq və nəticələrini təhlil edərək zəruri müddəalar üzə çıxarmaqdan ibarətdir.

**Tədqiqat metodları.** Müşahidə, şagirdlərin və müəllimlərin rəyinin öyrənilməsi, anket sorğuları, qabaqcıl sinif müəllimləri, metodbirləşmə üzvləri ilə söhbətlər, ənənəvi və geniş təlim texnologiyalarının müqayisəsi və s. kimi təcrübi və nəzəri tədqiqat metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1) I-IV sinif şagirdlərinin Azərbaycan dilindən yeni fəallaşdırıcı texnologiyalardan optimal istifadə oxu, yazı bacarıq və vərdişlərini təkmilləşdirir;

---

[9] Balıyev, H.B. Azərbaycan dilinin tədrisi metodikası / H.B.Balıyev, A.H.Balıyev. – Bakı: Qismət, 2014. – s.264– 379.

2) rabitəli mətnlər üzərində fonetik, leksik işlər şagirdlərdə ədəbi dilin normaları ilə düzgün oxuyub-yazmaq və danışmaq bacarıqları formalaşdırılır;

3) dialoq-diskussiya metodundan mətnlərin məzmunu üzərində səmərəli istifadə şagirdlərin dialoji nitqinin inkişafını təmin edir;

4) dərsdə ümumiləşdirmələrin hər bir məzmun üzrə aparılması təlim materialının mənimsənilməsinə müsbət təsir göstərir və s.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada qoyulan problem ilk dəfə müstəqil şəkildə tədqiqat kimi öyrənilir və fəallaşdırıcı metodların, texnologiyaların düzgün seçilməsi və səmərəli tətbiqi ilə şagirdlərin nitqi inkişaf edir, təfəkkürü dərinləşir və dünyagörüşünün genişlənməsi təmin edilir.

Tədqiqatın fərziyyəsi. Azərbaycan dili dərsləri interaktiv texnologiyalarla qurularsa şagirdlərin təlim materiallarını daha səmərəli mənimsəmələrini təmin etmək olar.

Bu fərziyyənin gerçəkləşdirilməsinin bir çox şərtləri var. Həmin şərtləri eksperimental sınaqdan keçirərkən aşağıdakı tələblər nəzərə alındı:

- interaktiv texnologiyaların standartlara görə düzgün seçilməsi;
- interaktiv texnologiyaların daha çox intensivlik yaradan didaktik imkanlarından maksimum istifadənin nəzərə alınması;
- şagirdlərin təlim fəallığının, o cümlədən nitq və təfəkkür fəallığının obyektiv eyni zamanda müntəzəm qiymətləndirilməsi və s.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Təlim fəallığı elmi-didaktik və texnoloji-metodoloji istiqamətlərdə idraki-qnesioloji səviyyələrdə şərh olunur. Təlimin məzmun standartlarına uyğun fəal metodlardan istifadənin seçmə prinsipləri müəyyən edilir və əsaslandırılır.

Tədqiqat işinin əsas ideyası, müddəaları, tövsiyə, nəticə və təkliflərindən metodik vəsaitlərin təkmilləşdirilməsində istifadə oluna bilər. Tədqiqatın nəticələrindən müəllimlər təlim texnologiyalarından daha səmərəli istifadə etməklə qarşılıqlı təlim fəallığı yaradılması və standartların reallaşdırılması kimi faydalana bilərlər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları elmi-nəzəri seminarlarda, eksperiment aparılan məktəblərdəki sinif metod-

birləşmələrində müzakirə edilmiş, məsləhətləşmələr də aparılmışdır. Mövzu ilə bağlı 38-dən artıq məqalə nəşr etdirilmişdir.

Təlimdə interaktivliyin zamanın tələbi olması, əsas təlim dili fənninin tədrisində daha da zərurət kəsb etməsi, şagirdlərin idrak və nitq fəallığı şəraitinin yaradılması, strategiyaların, dərsliklərin, qabaqcıl təcrübənin öyrənilməsi və vəziyyətə korrektələr, təkmilləşmələr üslubunda qiymət verilməklə ümumiləşmiş təkliflərlə çıxışlar edilməsindən ibarətdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi (226333 işarə), giriş (13882 işarə), səkkiz yarımfəsildən ibarət iki fəsil (117507 və 81903 işarə), nəticə (10820 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi müəyyənləşdirilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları açıqlanır, müdafiəyə çıxarılan əsas müddəaları sadalanır, tədqiqatın elmi yeniliyindən, nəzəri və praktiki əhəmiyyətindən bəhs edilir, işin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiya işinin struktur və bölmələrinin ayrılıqda həcmi haqqında məlumat verilir.

I Fəsil 4 paraqrafdan ibarət olub, **“Problemin ümumi məsələləri”** adlı fəslin birinci paraqrafı **“Pedaqoji texnologiyaların mahiyyəti, məzmunu və təlim prosesində onlardan istifadə**” adlanır. Pedaqoji sahədəki texnologiya ölkənin təhsil sahəsindəki islahatın tərkib hissəsidir, müəllimlərin hazırlığında böyük əhəmiyyət kəsb edir.

Bunun üçün pedaqogika ilə bərabər metodika elmi çərçivəsində çox işlər görülmüşdür. Pedaqoji texnologiya, həmçinin inteqrativ prinsip, interaktiv metodlar mövzusunda çoxlu sayda fundamental

tədqiqat işi aparılmışdır. A.Mehrabovun, Y.Kərimovun, F.Sadıqovun, F.Rüstəmovun, Ə.Paşayevin, Ə.Abbasovun, A.Əhmədovun, Z.Veysovanın, H.Balıyev, S.Vəliyev, V.Qurbanov, B.İbadovanın timsalında istinadların mənbəyini göstərə bilərik.

Pedaqoji texnologiyalar, onların inkişafı vasitələrini bilmək şərtilə bir çox inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmaq məqsədəuyğun nəticə verməkdədir[10]. Hər hansı bir ölkənin istər sosial, istər iqtisadi inkişafında təhsilin prioritet məsələ olduğunu unutmamalıyıq, çünki ölkənin, xalqın rifahı, inkişaf səviyyəsi onun rəqabətə davamlılığı təhsilin keyfiyyətindən asılıdır. Məsələn, Qazaxıstan Respublikasının 2011-2020-ci illəri əhatə edən təhsilin inkişafı üzrə dövlət proqramında cəmiyyətin inkişafının əsasında rəqabətə davamlı təhsilin keyfiyyətinin yüksəldilməsi aktual problem kimi irəli sürülmüşdür.

Elm və Təhsil Nazirliyinin hazırladığı "Təhsilin milli kurikulumu" konseptual xarakterli sənəd təhsilimizi Avropanın standartlarının inkişaf səviyyəsinə çatdırmaq üçündür. Məqsəd isə elə gənclər yetişdirməkdir ki, müasir tələblərə cavab versin, fikirlərini ifadə etsin, sərbəst, yaradıcı, həm də tənqidi düşüncəyə sahib olsun.

Yeni təlim texnologiyalarının əsasında tədris olunan dərslər üçün müəllim başlıca istiqamətləndirici faktordur: müəllim rəhbər, təşkilatçı, fasilitator və dizaynerdir.

I-IV siniflərdə oxu mətnlərinin tədrisinə məzmun üzrə işlərdən, ideyanı müəyyənləşdirməkdən deyil, düzgün, ifadəli, sərbəst oxudan başlamaq və nümunəvi oxunu təmin etmək zəruriyyətidir. İbtidai siniflərdə bu iş sistematik olaraq nümunələrə əsaslanmalıdır. Müasir texniki vasitələrlə nağılların səsləndirilməsi düzgün orfoepik normaların həyata keçirilməsinə zəmin yaratmış olur. Vurğunu gözləmədən oxumaq sözlərin mənasını düzgün dərk etmədən oxumaq deməkdir.

I fəslin ikinci paraqrafı **"Təlim prosesində şagirdlərin fəallaşdırılmasının mahiyyəti və aktuallığı haqqında"** adlanır.

---

[10] Mehdizadə, G. Pedaqoji texnologiyalarin mahiyyəti, məzmunu və təlim prosesində onlardan istifadə // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, – Bakı: Mühəndislik Universiteti, – 27– 28 aprel, – 2018. - s.1512.

Azərbaycan dili məktəbdə əsas təlim fənnidir. Şagirdlər Azərbaycan dilinə yaxşı yiyələnməzsə, başqa fənləri hərtərəfli öyrənməkdə çətinlik çəkər.

Təlim fəallığı tarixən iki aspektdən şərh olunur: birincisi, fikri fəallıq kimi, ikincisi, nitq fəallığı kimi. Didaktikada məsələ belə qoyulmuşdur. Kurikulum təlimi də bu məqsədlə seçilmiş və geniş bir sistemə çevrilmişdir. Bu sistemdə hər iki aspekti birləşdirən bir yol var ki, ona da nitq və təfəkkür fəallığı yolu deyilir. Ümumiyyətlə, pedaqoji fəallıq təlim fəlsəfəsində əsas və başlıca cəhət hesab edilir.

Öyrənmə fəal idrak prosesidir və elmi idrakdan fərqli olaraq şagird bəşəriyyətin əsrlər boyu əldə edib ümumiləşdirdiyi bilikləri mənimsəyir. Bu zaman şagirdlər "nə üçün", "nəyə görə" sualları qarşısında dayanırlar.

Dərsdə şagirdin fəallığını göstərən əlamətlərdən biri də onun kitabdan müstəqil olaraq istifadə edə bilməsi, müəllimin izahatından, əyani vasitələrdən, nümayiş etdirilən təcrübələrdən, şəkillərdən və s. nəticələr çıxarmağa çalışmasından ibarətdir [11].

Dünya pedaqoqları "interaktiv texnologiya", "interaktiv təlim", "interaktiv priyom", "interaktiv yanaşma" deyəndə pedaqoji prosesin bütün mərhələlərində beynəlxalq standartlara cavab verən dinamik fəallığı nəzərdə tuturlar.

Müasir dövrdə interaktiv metodlar ilk növbədə uşaqların əqli qabiliyyətlərinin və təfəkkürünün inkişaf etdirilməsini və mənəvi keyfiyyətlərə yiyələnməsini tələb edir.

İbtidai siniflərdə şagirdlərə müstəqil işləmə bacarığının aşılanması böyük nəzəri və praktik əhəmiyyət kəsb edir. Bəzən buna kifayət qədər əhəmiyyət verilmədiyindən kiçik yaşlı məktəblilər təlimdə ciddi çətinliklərlə qarşılaşır, əzbərçiliyə yol verir, təlimdə geri qalırlar.

Müasir təlim metodlarından olan rollu oyunlar son dərəcə əhəmiyyətlidir. Oyuna maraq göstərən şagird öz fəaliyyətində həyatın müxtəlif hadisələrinə həssas münasibət göstərir.

Dərsdə istifadə olunan oyunlar yaddaşı yeniləyir və zəif

---

[11] Mehdizadə, H.M. Məktəbdə təlim-tərbiyə işlərinin yenidən qurulmasının bəzi məsələlər / H.M.Mehdizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – s.65.

hazırlıqlı şagirdlərin fəallığına müsbət təsir göstərir.

İnteraktiv təlim metodlarından istifadə edərkən sinif otağında partaların düzülüşündən çox şey asılıdır. "İnteraktiv təlim"sözünün mənası "qarşılıqlı əlaqədə fəaliyət, dialoq, müzakirə etmək, mühakimə etmək" deməkdir.

Oxu prosesində şagirdlərin fəallaşdırılması üçün istifadə olunan yollar müxtəlifdir. Fikrimizin təsdiqi üçün IV sinfin Azərbaycan dili dərsliyindəki Z.Xəlilin "İki nar" adlı əsəri təhlil olunmuşdur[12].

Dərsin gedişində təlimin məqsədini və mətn standartlarını aşağıdakı kimi vermək olar (cədvəl 1):

**Cədvəl 1**

| Təlim məqsədləri | Mətnin standartları |
|---|---|
| Əsər oxunur və plan tutulur. | 2.2.3. Verilmiş mətni genişləndirmək məqsədilə plan tutulur. |
| Müxtəlif fikirəri dinləyib öz rəyini bildirir. | 1.1.1. Dnlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirilir. |
| Resurslar: dərslik, iş dəftəri | |

Burada orfoepiya amili nəzərə alınmaqla bütün ədəbi tələffüz normaları, vurğu amili, intonasiya, orfoepiya qaydalarının nəzərə alınmasını göstərmək istəyirik.

Mətndə hansı sözlərin normalara uyğun oxunmasını diqqətə çatdırırıq.

Şagirdlərdə fəallıqla yanaşı müstəqillik tərbiyə edilməsinin əhəmiyyəti kəsb edir.

Üçüncü paraqraf **"Azərbaycan dili dərsliklərinin və metodik vəsaitlərin mövzu baxımından təhlili"** adlanır.

2008-ci ildən başlayaraq Azərbaycan dili təlimi I-IV siniflər kurikulum tələbləri əsasında tərtib olunmuş Azərbaycan dili-1 (əlifba, oxu) adlı, Azərbaycan dili-2, Azərbaycan dili-3, Azərbaycan

[12] Azərbaycan dili: Ümumtəhsil məktəblərinin IV sinfi üçün dərslik / R.İsmayılov, S.Abdullayeva, D.Cəfərova [və b.] – Bakı: Altun kitab, – 2017. – s.28.

dili-4, habelə 2019-cu ildən isə yeni Azərbaycan dili-1 dərslikləri və həmin dərsliklərə yazılmış müəllim üçün vəsaitlərlə həyata keçirilir. Eyni zamanda müəllim və şagirdlərin istifadəsinə verilmiş elektron dərsliklər dərsin optimallığını artırır. Bu dərsliklər I-IV siniflərdə Azərbaycan dili təlimini yeni təlim texnologiyaları və metodları əsasında qurmaq üçün müəyyən mənada irəli atılmış uğurlu addım hesab edilə bilər. Dərsliklərin didaktik imkanlar cəhətdən zəngin olması müsbət amillər kimi qeyd edilməlidir.

Təhlillərimiz göstərdi ki, II və IV sinif "Azərbaycan dili" dərsliyində 100 oxu mətni, 33 qayda var; III sinif "Azərbaycan dili" dərsliyində 87 oxu mətni, 72 qayda, IV sinif "Azərbaycan dili" dərsliyində 90 oxu mətni, 27 qrammatik qayda var.

I sinif "Azərbaycan dili" dərsliyində [13] "Adı ilə böyüsün" mətnində 66 sözdən 15-i orfoepik qaydalara uyğun oxunmalıdır. Orfoepik norma ilə oxunmalı sözlər bunlardır: [eşidənnər], [onnar], [isdiyillər], [vüqarrı], [qüdrətdi], [deməx'di], [uşaxlıxda], [adıyla], [çiçəx'lənən], [ölküyə], [çevrilmişdi], [hörmətnən], [yad edəcəx'].

Ancaq təəssüf ki, dərslikdəki həmin mətndən sonra bu məsələ ilə əlaqədar istiqamətverici tapşırıq yoxdur.

Dərsliklərdə interaktiv lövhələr, kompüterlər, slaydlar, iş vərəqləri, diaqram, kinoskop, proyektor və s. kimi vasitələrin daha müvafiq olanından istifadə çalışmaların şərtlərinə daxil edilməlidir. Eyni zamanda, çalışma şərtlərində oxu təlimi materiallarının qiraəti və nəqli zamanı daha optimal ola biləcək interaktiv təlim üsullarından istifadə ilə bağlı göstərişlər və ya qeydlər olmalıdır. Biz bu fikirdəyik ki, dərsliklər oxu materiallarının didaktik məqsədlər baxımından tərtib olunduğu və yuxarıda qeyd edilənlərin nəzərə alındığı təqdirdə pedaqoji texnologiyaların tətbiqindən səmərəli nəticələr əldə etmək mümkündür.

I fəslin dördüncü paraqrafı olan **"Yeni təlim texnologiyalarından istifadə ilə əlaqədar məktəb təcrübəsində vəziyyət"** haqqında onu deyə bilərik ki, müşahidələrimiz göstərdi ki, ibtidai sinif müəllimlərinin əksəriyyəti yeni metodik təfəkkürlə işləyirlər.

---

[13] Azərbaycan dili: Ümumtəhsil məktəblərinin I sinfi üçün dərslik / R.İsmayılov, S.Abdullayeva, G.Orucova [və b.] – Bakı: Altun kitab, – 2012. – s.79.

Məktəb təcrübəsini öyrənmək nəticəsində müəyyən etdik ki, yeni texnologiyalarla iş haqqında yazılanlar məktəb təcrübəsinə müsbət təsirini göstərmişdir.

"Qazax və Azərbaycan təhsil sistemində Ana dili dərslərində şagirdlərin fəallığını təmin etməkdə interaktiv təlim texnologiyasının (İbtidai siniflərdə Kurikulum üzrə) tətbiqində oxşar və fərqli cəhətlərin tədqiqi" adlı qrand lahiyə çərçivəsində (EİF-Mob-5-2014-2(17)- QMTK) Qazaxıstan Milli Pedaqoji Universitetində "Məktəbə-qədər və İbtidai təhsilin metodikası və nəzəriyyəsi" kafedrasında keçdiyimiz elmi təcrübə zamanı mühüm bir məqam diqqətimizi çəkmişdir. Təhsil strategiyasının qarşıya qoyduğu tələblər təkcə şəhər məktəblərində tətbiqi ilə yekunlaşmır, əldə edilmiş bilik və bacarıqlar Qazaxıstanın ucqar bölgələri ilə paylaşılır. Keçirilmiş onlayn dərs məqsədi həm şəhərin, həm də ucqar bölgənin elmi nailiyyətinin tədrisdə paralel şəkildə inkişaf etməsinə zəmin yaradır. Şəhər məktəblərindəki müəyyən elmi metodlar həm qazax, həm də rus dilində bölgələr ilə paylaşılır. Etdiyimiz müşahidələrə əsaslanaraq qeyd edə bilərik ki, interaktiv təlim metodlarının vasitələri nəinki şəhər, hətta bölgələr üzrə uğurla tətbiq olunur. Məktəblərdə sinif otaqları elektron lövhələrlə təchiz olunmuşdur ki, bu da öz növbəsində qarşıya qoyulmuş məqsədin tətbiqində əsas rol oynayır.

İnteraktiv metodlar məqsəd yox, vasitə hesab olunur. İnteraktiv təlim metodlarının seçilməsində əksər xüsusiyyətləri, xüsusilə dərsin məqsədi və sinfin hazırlıq səviyyəsini nəzərdə tutmaq vacibdir[14].

Azərbaycan dili təlimində yeni texnoloji faktor kimi fəal təlim metodologiyası və ya kurikulumlarla qurulan dərsləri təhlil etməklə müəyyən nəticələr əldə etdik:

1. İbtidai sinif müəllimlərimiz yeni texnoloji qayda ilə keçirilən dərslərdə öyrəniləcək mövzunu mənimsətmək üçün özlərinin bildiklərini birbaşa və dolayı əlaqələrdən istifadə etməyə çalışıblar; habelə onlar fəal təlimin əksər komponentlərini, o cümlədən forma və metodları ilə işləmək bacarığı göstəriblər.

2. Əyanilik tələb edilən dərslərdə kompüter, slaydlar,

---

[14] Pedaqoji texnologiyalar / A.O.Mehrabov, Ə.M.Abbasov [və b.] – Bakı: Mütərcim, –2006. –255 s.

kodoskop, kartoçka vərəqlər, diaqramlar, meyarlar və qiymətləndirmə cədvəlləri və s. vasitələrdən istifadə olunur.

Bunlar təlimin intensiv qurulması, optimal nəticələr əldə olunması və qiymətləndirmənin obyektiv aparılması məqsədlərini həyata keçirməyə xidmət edir. Bununla belə, pedaqoji texnologiyalar və fəal metodlarla qurulan bu dərslərin çatışmayan cəhətləri də var.

1. İbtidai sinif müəllimləri yeni təlim texnologiyaları və fəal təlim metodları ilə işləməyi məqsəd kimi başa düşürlər. Halbuki oxu dərslərində didaktik məqsəd ibtidai sinif şagirdlərində səsli, səssiz oxu, habelə məzmun üzərində intonasiya, vurğu və orfoepiya ilə bağlı vərdişlər formalaşdırmaqdan ibarətdir. Nümunələr verdiyimiz sinif müəllimlərinin işində də mətn oxusu, lüğət işləri, orfoepik tələffüz bacarıq və vərdişlərinə yer ayrılmaması da məhz bununla əlaqədardır.

2. Oxu təlimində yeni təlim texnologiyaları ilə qurulan intonasiya üzrə işlər də mühüm rol oynayır. Dinlədiyimiz dərslərdə ifadəli oxu məqsədi ilə təlim texnologiyalarından – qısa fasilə, orta fasilə, uzun fasilə, məntiqi vurğu, habelə sözün uzadılması, yanaşı gələn sözlərin birnəfəsə oxunması, deyilməsindən istifadə olunmamışdır.

3. Keçilmiş dərslərin bir neçəsində inteqrasiya yoxdur. Halbuki, hər bir dərsdə fənlərarası və ya fəndaxili inteqrasiyadan istifadə olunmalıdır.

**“Azərbaycan dili dərslərində şagirdlərin fəallığını təmin etməkdə interaktiv texnologiyalardan istifadə üzrə işin sistemi”** adlı II fəslin birinci paraqrafı **“Azərbaycan dili dərslərində şagirdlərin fəallığını təmin edən interaktiv təlim metodları”** adlanır. İnteraktiv və inteqrativ təlim metodlarının tətbiqi layihəsi bir neçə ildən artıqdır ki, ölkəmizdə həyata keçirilir. Bu illər ərzində interaktiv təlim metodlarının öyrənilməsi sahəsində respublikamızda xeyli işlər görülmüş, o cümlədən nəzəri materiallar çap edilmişdir. Müasir təlim texnologiyası təlim prosesindəki şagirdin təlim fəallığını tezləşdirən, biliyin bacarıq və vərdişlərə dinamik şəkildə çevrildiyini təmin etmiş yeni sistemdir. Həmin məqsəddən doğan

sifarişi İKT xeyli səmərəli tərzdə həyata keçirir[15].

İKT-yə əsaslanmış təlimdə müəllim multimediadan tədris prosesində cəlbediciliyi və keyfiyyəti artırmaq üçün istifadə etməlidir[16].

İbtidai siniflərdə oxu məzmun xətti şagirdləri kitabı düzgün oxuyub dərk etməyi, mətni məzmun və ideyaca təhlil etmək əsasında danışmağı öyrətmək strategiyasıdır.

Oxu, yazı və dil qaydaları bütün dünyada məzmun xətti sayılır. Standartlar elə çəki, ölçü və ya təminatverici keyfiyyət vahidləridir ki, xalqları, ölkələri, insanları bir-birinə yaxınlaşdırır, arada inam, etimad və əməkdaşlıq üçün ortaq ola biləcək əsas yaradır.

Fənn kurikulumlarında fənn məzmunu standartlar üzrə tərtib olunub. Məzmun standartları fənnin imkanlarına görə şagirddən gözlənən ümumi təlimin nəticələrini xüsusiləşdirir. Hər standartın özü məzmun, bilik və fəaliyyət, yəni bacarıq kimi iki vacib komponentdən ibarətdir. Standart həm öyrədiləcək məzmundan xəbər verir, həm də bacarıqların cəhətini göstərir, yəni öyrədiləcək predmetlə bərabər öyrədilənin hansı tərzdə büruzə verəcəyi haqda aydın təsəvvür yaradılır. Hər bir standartın alt-standartları mövcuddur. Alt standartlar məzmunun komponentinə görə sadələşdirilən kimi fəaliyyət komponentinə əsasən də açılır. Standartın komponentləri Blum taksonomiyası əsasında tətbiq olunur.

İbtidai siniflər üzrə Azərbaycan dili kurikulumunda əks edilənlər hər bir sinfin dərsliklərinə aid yazılmış metodik tövsiyələrdə də öz əksini tapmışdır. Sinif müəllimlərinə bacarıqlı tətbiq üçün öyrətmək, əlaqələndirmək istiqaməti vermək təkmil metodistlərin işidir. Tədqiqatçının vəzifəsi cari metodika ilə qabaqcıl müəllimin işini əlaqələndirib təlim nəticələrini yüksəltməyə nail olmaqdır.

**“Oxu, yazı və dil qaydaları məzmun xətlərinin tədrisində**

---

[15] Abbasov, Ə., Məmmədova Ə. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində kurikulum islahatının başlıca istiqamətləri // “Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları, – Naxçıvan: –2011, – s.17.

[16] Mehdizadə, G. Tədrisin fənn proqramları (kurikulumları) əsasında təşkilinin əhəmiyyəti // Avrasiya Zirvəsi V Elmi Araşdırmalar və Aktual Problemlər konfransı, – Bakı: Xəzər Universiteti, –16–19 dekabr, – 2019, – s.209.

**texnologiyalardan istifadə ilə fəallaşdırma”** II fəslin ikinci paraqrafıdır.

Məlumdur ki, interaktiv təlim şagirdlərdə idrak fəaliyyətinin təşkili, idarə olunmasından ibarət metodların məcmusudur. Belə təlim müəllim tərəfindən yaradılan şərait əsasında problem situasiyanın qurulması ilə biliklərin müstəqil əldə edilməsi, yəni mənimsənilməsidir. Bu, təlim şəraitinin yaradılması, problemin həlli prosesində şagirdin fəal tədqiqatçı vəzifəsinin stimullaşdırılmasını ehtiva edən yeni bir sistemdir.

“Fəal təlim” konsepsiyası və metodologiyasına görə həmin prinsiplər bunlardır: 1. Şəxsiyyətə yönəlmiş təlim; 2. Fəal idrak; 3. İnkişafetdirici təlim; 4. Qabaqlayıcı təlim; 5. Təlim-tərbiyənin çevikliyi; 6. Əməkdaşlıq və 7. Dialoji təlim prinsipi.

Dərs prosesində şagirdlərin fəallığının təmin edilməsi həmişə aktual olmuşdur. Lakin ənənəvi təlimdə şagirdlərin fəallaşdırılması bilavasitə müəllimin fəallığından asılı olurdu. İnteraktiv təlim metodunun ən gözəl tələblərindən biri isə şagirdlərin maksimum fəallığını təmin etməkdir.

Məlumdur ki, fəal dərsin yeddi mərhələsi vardır. İnteraktiv dərsin aparılması üçün ən mühüm amillərdən biri “motivasiya”, problemin qoyuluşu mərhələsidir. Motivasiyanın əsas vəzifəsi şagirdi mövzunun əsasındakı məsələ və problemlərlə bağlı maraqların və düşüncələrin yaranmasına, biliklərə yiyələnmələrinə həvəsləndirmək-dən ibarətdir.

Dərsin sonrakı ümumi gedişatı xüsusilə motivasiyanın hansı dərəcədə uğurlu yaradılmasından asılıdır.

Tədqiqatın aparılması üçün müxtəlif iş formalardan istifadə edilir. Bu iş bütünlüklə sinifdaxili, qruplarla, cütlüklərlə və yaxud fərdi aparılır. Müşahidələr göstərir ki, müəllimlər bu iş formalarından olan kiçik qrupdan daha çox istifadə edirlər.

Tədqiqata ayrılan vaxt bitəndən sonra şagirdlər informasiya mübadiləsi edirlər. Həmin mərhələ üçün əsas məqsəd şagirdlərin hamısını yeni fakt və tapıntılarla tanışlıqdır.

Beləliklə, qruplara ayrılmış vaxt bitdikdən sonra təqdimatların öz əksini tapdığı iş vərəqlərinin hamısı lövhə üzərində asılır və informasiyaların müzakirəsinə başlanılır.

Müzakirə bitdikdən sonra ümumiləşdirmə apararaq qəti nəticəyə gəlmək prosesi qalır. Başlıca meyar biliklərin mənimsənilməsinə yaradıcı surətdə yanaşmanın tətbiq olunmasıdır.

Azərbaycan dili dərslərində yaradıcı tətbiqetmə ən çox dərslikdən və ya hər hansı bir hekayə, nağıl parçasından cümlələr, sözlər seçib yazmaq, tərkibində öyrənilən mövzuya dair sözlər olan mətndən (esse)dən istifadə etmək, oyunlar keçirmək və s. vasitəsilə yerinə yetirilir.

Qiymətləndirmə elə bir mexanizmdir ki, dərsin bütün mərhələlərində aparılır. Lövhədə qrafik çəkilir, şkalalara bölünür, şkalalarda qiymətlər və qrupların nömrələri əks etdirilir.

**"Təlimdə dialoq-diskussiyadan optimal istifadə üzrə fəallaşdırma"** II fəslin üçüncü paraqrafıdır.

Diskussiya metodologiyası müasir təlim texnologiyası sayılır və bu metodun tətbiqindən hansı məqsədlərin güdüldüyü, hansı alqoritmləri qurmağın vacibliyi və nəhayət, hansı nəticələrə görə hərəkət etməyin zəruriliyi aydın təsəvvür olunur. Bu mənada ibtidai sinif şagirdlərinin nitq və təfəkkürünü inkişaf etdirməkdə, müəllimlərin isə metodik təxəyyülünə qol-qanad verməkdə bu təlim üsulunun mahiyyətini nəzərdən keçirək:

Diskussiya metodunun tətbiqi texnologiyasına məqsəd, alqoritm, şərtlər, vasitələr aiddir. Diskussiya geniş fəlsəfi anlayışdır. İdrak və təlim prosesində əsas məqsədi məlum həqiqətlərin yolunu göstərmək deyil, naməlumu düşüncə müstəvisinə çıxarmaqdır.

İbtidai siniflərin dərsliklərindəki mətnlərin məzmun təhlili və tərbiyəedici xarakterindən çıxış edərək dialoq-diskussiya nümunələri göstərməyi qarşıya məqsəd qoymağımız da elə bununla əlaqədardır.

Dərslərini müşahidə etdiyimiz müəllimlərlə söhbətlərdən bu qənaətə gəldik ki, onlar, həqiqətən də, ziddiyyətli məqamların toqquşmasını ehtiva edən əsərlərdə "Bəs siz necə edərdiniz?", "O, doğrumu hərəkət etdi?", "Necə olmalı idi?", "Niyə belə hərəkət etmək olmaz?", "Necə düşünürsünüz?" və s. suallar diskussiyalara meydan açmış olur.

**"Eksperimentin təşkili və keçirilməsi"** II fəslin dördüncü paraqrafıdır.

İbtidai siniflər üzrə Azərbaycan dili dərslərində fəallığı təmin

edən pedaqoji texnologiyaların şagirdlərin oxu texnikasının, ədəbi tələffüzünün və idrak qabiliyyətinin inkişafına təsir səviyyəsini yüksəltmək məqsədilə eksperimentin təsviri və təhlilinə nəzər salaraq güman edirik ki, irəli sürülmüş elmi-didaktik ideyaların müəyyənləşdirici, öyrədici və yoxlayıcı olmaqla üç mərhələdə keçirilməsi alınan nəticələrin obyektivliyinə inam yarada biləcək.

Eksperiment 2009-2015-ci illər arasında keçirilmişdir. Müəyyənləşdirici eksperiment 2009-2010-cu tədris ilində, öyrədici eksperiment 2010-2012 və 2013-2014-ci tədris ilində, yoxlayıcı eksperiment isə 2014-2015-ci dərs ilində aparılmışdır.

Eksperimentdə respublikanın qabaqcıl ibtidai sinif müəllimləri, o cümlədən respublika üzrə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibləri fəal iştirak etmişlər.

Eksperiment qoyulmuş siniflərdə oxu zamanı motivasiya olaraq "orfoepik beşdəqiqəliklər"dən istifadə şagirdlərin ədəbi tələffüzlə oxuya və danışmağa hazırlanmasını təmin etmək məqsədi daşımışdır.

Müəyyənləşdirici müşahidələrimizlə müəllimlərin birinci sinifdə oxu zamanı ədəbi tələffüz normalarına necə əhəmiyyət verdiklərini yoxladıq. Məlum oldu ki, bəzi müəllimlər bu işə əhəmiyyət vermir. Onlar başlıca diqqəti tələsik oxuya yönəldirlər.

Oxu zamanı texniki təlim vasitələrindən istifadə olunmasının üstünlükləri şagirdlərin fəallığında və nitqlərinin sürətinə və tempinə təsirində də özünü göstərmişdir. Cədvəl 2 bunu özündə əks etdirir. Burada a – eksperiment, b – kontrol sinifləri göstərir. Eksperiment və kontrol sinif nəticələrinə nəzər salsaq görərik ki, eksperimental siniflərdə göstərici daha yüksəkdir.

Eksperimental siniflərdə intonasiyanı gözləməklə, orfoepiyaya əməl etməklə oxumaq məzmun standartları olduğu kimi, həm də məqsəddir.

Mətn üzərində məqsədyönlü fonetik, leksik-frazemik işlərin aparılması həm ideya məzmunun daha aydın dərk edilməsinə, həm də intensiv mənimsənilməsinə səbəb olar.

Cədvəl 2-dən aydın olur ki, şagirdlərin təlim fəallığının göstəricisi metodların tətbiqindən asılıdır. Odur ki, rəqəmlərlə müqayisə eksperimental siniflərdə alınan nəticələrin daha yüksək olduğunu göstərir.

**Cədvəl 2**

| Məktəblər | Siniflər | Şagirdlərin sayı | Nəticələr | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Düzgün oxu | Faizlə | Səhv oxu | Faizlə | Düzgün danışanlar | Faizlə | Səhv danışanlar | Faizlə |
| Bakı şəhəri “Zəngi” liseyi | $IV^a$ | 26 | 15 | 57,69 | 11 | 42,31 | 14 | 53,84 | 12 | 46,16 |
| | $IV^b$ | 25 | 6 | 24 | 19 | 76 | 15 | 60 | 10 | 40 |
| Bakı şəhəri 23 saylı tam orta məktəb | $IV^a$ | 25 | 15 | 60 | 10 | 40 | 13 | 52 | 12 | 48 |
| | $IV^b$ | 25 | 7 | 28 | 18 | 72 | 8 | 32 | 17 | 68 |
| Qusar şəhər 1 saylı tam orta məktəb | $IV^a$ | 27 | 20 | 74,07 | 7 | 25,93 | 18 | 66,6 | 9 | 33,4 |
| | $IV^b$ | 26 | 8 | 30,76 | 18 | 69,24 | 16 | 61,53 | 10 | 38,47 |
| Gəncə şəhər 28 saylı tam orta məktəb | $IV^a$ | 26 | 18 | 69,23 | 8 | 30,77 | 16 | 61,53 | 10 | 38,47 |
| | $IV^b$ | 25 | 8 | 32 | 17 | 68 | 9 | 36 | 16 | 64 |
| Hacıqabul Muğan qəsəbə tam orta məktəbi | $IV^a$ | 27 | 17 | 63 | 10 | 37 | 16 | 59,25 | 11 | 40,75 |
| | $IV^b$ | 26 | 6 | 23 | 20 | 77 | 7 | 26,92 | 19 | 73,08 |
| Bakı şəhəri 254 saylı tam orta məktəb | $IV^a$ | 24 | 16 | 66,67 | 8 | 33,33 | 15 | 62,50 | 9 | 37,50 |
| | $IV^b$ | 25 | 5 | 20 | 20 | 80 | 7 | 28 | 18 | 72 |

Kontrol siniflərdə belə təmrinlər aparılmır. Mətnə dair tapşırıqlar mətnin qavranılmasını nəzərdə tutmur, növbəti mətnə keçmək xüsusiyyəti daşıyır.

Cədvəl 3-də eksperimentdə iştirak edən 148 və 135 şagirdin nitq fəallığının nəticələri kontrol siniflərlə müqayisədə 30-35%, yaxşı nəticələri isə təxminən 25-30% yüksək olmuşdur. Bu da onu sübut edir ki, nümunəvi hesab edilərək qurulan motivasiyalar, o cümlədən digər texnologiyalar şagirdlərin idrakı fəallığını nitq fəallığına çevirməklə çox mühüm amil olur.

**Cədvəl 3**

| Siniflər | Şagirdlərin sayı | Yüksək nəticələr (rəqəm və faizlə) | Yaxşı nəticələr (rəqəm və faizlə) | Kafi nəticələr (rəqəm və faizlə) | Aşağı nəticələr (rəqəm və faizlə) |
|---|---|---|---|---|---|
| Kontrol | 145 | 28 (19,3%) | 64 (44,1%) | 47 (32,4%) | 6 (4,2%) |
| Eksperim. | 148 | 44 (29,7%) | 70 (47,3%) | 32 (21,6%) | 2 (1,4%) |
| Kontrol | 139 | 40 (28,8%) | 60 (43,2%) | 30 (21,6%) | 9 (6,4%) |
| Eksperim. | 135 | 50 (37%) | 60 (44,5%) | 20 (14,8%) | 5 (3,7%) |

Onu da əlavə etmək lazımdır ki, mətn üzərində təhlillərin interaktiv metodlarla aparılması nəticəsində şagirdlər mətnlərin məzmununu daha asan mənimsəyirlər.

Beləliklə, eksperimental siniflərin nəticələri bizim işçi fərziyyəmizin elmi cəhətdən daha düzgün, praktik əhəmiyyətlilik baxımından daha məqsədyönlü olduğunu göstərmiş olur və bizə aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Rabitəli materialların üzərində şagirdlərin fəallığını təmin edən işlərə dair müəllimlərə daha düzgün və aydın istiqamətlər verilməlidir. Müəllimlərə oxu, yazı və dil qaydaları təliminin məqsədləri gözlənilən nəticələr kimi təqdim olunmalıdır.

2. Şagirdlərin dərsdə yekun qiymətləndirilməsi müşahidə, müqayisə və müzakirələri mətnin ifadəli nəqli əsasında aparılmalıdır.

3. Azərbaycan dili dərsləri nitq-dil və dil-nitq istiqamətində qurulmalıdır.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqat işindən əldə olunmuş nəticə və qənaətlər öz əksini tapmışdır.

İbtidai siniflərdə Azərbaycan dilindən şagirdlərin təlim fəallığını gücləndirməkdə bütün məzmun xətləri geniş didaktik imkanlara malikdir. I-IV sinif şagirdləri bu fənnin kurikulumunun tələbləri əsasında səsi, sözü, cümləni və mətni düzgün, sürətli, ifadəli oxumaq vərdişlərinə, habelə mətnin məzmununu təhlil etmək,

normalara uyğun şəkildə danışmaq və yazmaq vərdişlərinə yiyələnməlidirlər. Bu mənada təlim işi rabitəli mətnlərdən başlanır. Eyni zamanda dil qaydaları məzmun xəttinin təlim əhəmiyyətini də azalda bilməz. Təəssüf ki, I-IV sinif şagirdlərinin bacarıq və vərdişlərində müşahidə olunan nöqsanların bir çoxu oxu məzmun xətti ilə əlaqədardır. Odur ki, tədqiqatda bu cəhətə daha çox diqqət yetirməli olduq.

Oxu məzmun xəttinin məqsəd və vəzifələrinə eyni zamanda ədəbi-bədii, publisistik, elmi üslublardan olan mətnləri aydın, səlis oxumaqla yanaşı, həm də belə mətnlərin anoloji nümunələrini qurmaq bacarıq və vərdişlərinin aşılanması kimi həyati bacarıqlar daxildir. Deməli, həyati bacarıqların aşılanması yaradıcı fəaliyyətə möhkəm zəmin olur ki, bu da həm gözlənilən, həm də son nəticə sayıla bilər. Tədqiqat bu nəticələrin əldə olunmasını bir sıra şərtlərlə bağlı olduğunu da göstərmişdir. Bunlar aşağıdakılardır:

1. I-IV sinif müəllimlərinin 40%-nin oxusu və danışığı ədəbi tələffüz normalarına tam uyğun deyil, onlar mətn oxusunun ən elementar tələblərinə bələd olmadıqlarından şagirdlərə nümunə göstərə bilmirlər. Halbuki orfoqrafik işləri orfoepik işlərlə, orfoepik işləri orfoqrafik işlərlə əlaqə və vəhdətdə mənimsətmək əsl fəallıq yaratma prosesidir.

2. İbtidai siniflərdə oxu və yazı məzmun xəttinin reallaşdırılması məqsədilə təlim texnologiyalarından istifadə metodikası kütləviləşməmişdir və dil qaydaları dərslərdə İKT-dən, o cümlədən, maqnit lövhələrdən, slaydlardan, illüstrativ panoram yaradan proyeksiya qurğularından, elektron yazıları və s. kimi texniki-təlim vasitələrindən istifadənin yüksək didaktik uğurlarının deyil, əsasən görüntülərinin müşahidə edildiyini söyləyə bilərik.

3. Yazı təliminin elmi-didaktik vəzifələrinə bələd olmayan müəllim İKT-dən istifadə etsə belə, yenə də kurikulum tələblərinə uyğun işləyə bilmir. İKT texniki təlim vasitəsidir. Oxu dərslərinin təşkili və aparılması bütövlükdə öyrədici təlim texnologiyasıdır.

Bizim tədqiqatın qarşısına qoyduğumuz məqsəd və vəzifələrdən biri təlim texnologiyalarından yalnız oxu məzmun xəttinin reallaşdırmasında istifadə etməyin əsaslı olub-olmadığını müəyyənləşdirməkdən ibarət deyil. Təlim texnologiyalarından hər bir dərsdə

tətbiqi əhəmiyyətlidir. Lakin bizim məqsədimiz yeni təlim texnologiyalarından oxu məzmun xəttində məqsədəmüvafiq istifadə edilməsi və optimal nəticə alınmasına dair mülahizələrlə metodikanı zənginləşdirməkdir. Odur ki, mövcud təcrübəyə və bu sahədəki metodik baxışlara tənqidi təhlil verməyi nəzərdə tutduq.

Müşahidələr göstərdi ki, ən qabaqcıl müəllimlərin belə Azərbaycan dili dərslərində yeni təlim texnologiyaları tətbiq olunsa da, düzgün yazı və ədəbi tələffüzlə bağlı vərdişlərin yaradılması və qiymətləndirilməsi tələbi unudulmuş olaraq qalır.

4. Respublikada müəllimlərin qabaqcıllığını müəyyən edən vahid kriteriyalara nəzər saldıqda məlum oldu ki, "İlin müəllimi" müsabiqəsinin iştirakçılarının, o cümlədən ibtidai siniflərdə Azərbaycan dili dərslərini qiymətləndirmək üçün tərtib olunmuş meyarlar cədvəlində belə ədəbi tələffüz və dil qaydaları ilə bağlı tələblər yoxdur.

Digər texnoloji tələblər və kriteriyalar bunlardır:

1. Mövzu ilə bağlı maraqlı və orijinal formanın seçilməsi.
2. Mövzu ilə əlaqədar problemin müəyyən edilməsi və həlli prosesinə şagirdlərin fəal cəlbi.
3. Şagirdlərlə həssas ünsiyyət və əməkdaşlığın yaradılması.
4. İnteraktiv təlim üsullarından məqsədyönlü istifadə edilməsi.
5. Tədris olunan mövzunun dərs prosesində mənimsədilməsi.
6. Şagirdlərin idrak fəallığının təmin edilməsi.
7. Şagirdlərin bütünlüklə qiymətləndirilməsi üçün çevik formalardan istifadə olunması.
8. Dərsin tərbiyəedici və inkişafetdirici xarakterdə olması, mövzu ilə bağlı şagirdlərə müvafiq həyati bacarıqların aşılanması.
9. Şagirdlərə fərdi və diferensial yanaşmanın təmin edilməsi, onların müstəqilliyinə və təşəbbüskarlıqlarına şəraitin yaradılması.
10. Təlim vaxtının optimal bölüşdürülməsi.
11. Əyaniliyin təmin edilməsi.
12. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə səviyyəsi.

Göründüyü kimi, qiymətləndirmə kriteriyaları içərisində yazılı və şifahi ifadə və inşa, habelə orfoqrafik və orfoepik vərdişlərin formalaşdırılması məqsədi ilə səciyyəvi fəallaşdırıcı metodlardan

istifadə ilə bağlı prinsipial tələblər yoxdur. Bu çatışmazlığı nəzərə alaraq, həmin cədvələ bunlar əlavə edilməlidir:

1) Yazılı və şifahi nitq rejiminə nəzarət;

2) İnteqrativ nəticələrin çıxarılması;

3) Elmiliyin gözlənilməsi.

Əlavə etdiyimiz zəruri şərtlərdən birincisi yazılı və şifahi nitq rejiminə nəzarətdir ki, biz bunu nə müəllimlərin təcrübəsində, nə də metodik vəsaitlərdə müşahidə edə və ya görə bildik. Ona görə də bu cəhətin daim diqqət mərkəzində saxlanılmasının Azərbaycan dili dərsləri üçün zəruri olduğu tələbini irəli sürdük. Öyrədici eksperiment zamanı səsləndirilən "Biz şifahi və yazılı nitqimizdə fonetik normaları gözləyirikmi?" sualı ilə motivasiya yaradılması nitq rejiminə riayət etməyə önəm verilməsi deməkdir.

İnteraktiv nəticə ədəbi tələffüzlə bağlı ümumiləşmiş fikir üzərində şagirdlərin düşündürülməsidir. Öyrədici eksperimentdə ədəbi tələffüz nümunələrinə dair şagirdlərin çıxardığı nəticələr nəzəri və təcrübi xarakter daşımış olur. Elmiliyin gözlənilməsi əslində yazılı və şifahi normaların dialektik vəhdətdə gözlənilməsi üzrə nəticələr çıxarılması deməkdir.

Beləliklə, 12 tələbdən ibarət cədvəllərdə qeyd olunanları, şərhləri, izahları ilə birlikdə oxu məzmun xəttinin reallaşdırılmasında yeni təlim texnologiyalarının nomenklaturasına daxil edib, fərziyyəmizi də onun əsasında formalaşdırıb eksperimentlər keçirməyi məqsədəuyğun hesab etdik. Aldığımız nəticələr aşağıdakı kimi oldu:

1. Mövzu ilə bağlı fəallıq yaradan maraqlı və orijinal forma seçilərkən, ədəbi tələffüz və ya nümunəvi oxudan istifadə olunur.

2. Şagirdlər tərəfindən bir-birinin qiraətinin, nitqinin intonasiyasına və orfoepiyasına nəzarət edilir.

3. Nümunəvi oxu və tələffüz bacarıqları müntəzəm olaraq qiymətləndirilir.

4. Düzgün və ya ifadəli oxu ilə bağlı dialoq-diskussiya yaradılır, qiymətləndirilir və s.

Müəyyənedici, öyrədici və yoxlayıcı eksperimentlərin müqayisəli şərhi onu göstərir ki, Azərbaycan dili təlimində yeni təlim texnologiyalarından istifadə geniş anlayışdır, özündə bir sıra tələbləri ehtiva edir.

1. Müasir dərslər nitq və təfəkkür interaktivliyinə əsaslanmalıdır. Bu zaman müəllim:

– düzgün, ifadəli mətn oxusu, düzgün və ifadəli nitqi – danışığı həmişə diqqət mərkəzində saxlayır;

– idraki fəallığın yaradılması və ona əməl olunmasını nəzarətdə saxlayır, qiymətləndirir.

2. Oxu, yazı və dil qaydaları dərsləri inteqrasiyalarla nəticələnməlidir. Bu zaman müəllim:

– fəndaxili inteqrasiyanın nəzəri, təcrübi elementlərinin hər bir dərsdə yaradılmasına çalışmalı və qiymətləndirməlidir;

– fənlərarası əlaqələr sistemlə aparılmalı, nəzəri və təcrübi nəticələri qiymətləndirməlidir.

3. Mətnlər üzərində oxu dərsləri və leksik işlər şagirdlərdə nitq zənginliyi, ədəbi-bədii duyum, estetik zövq tərbiyə etməli, elmi dünyagörüşü formalaşdırmalıdır.

Bütün bunları əsas tutaraq aşağıdakı təklifləri irəli sürürük:

1) I-IV siniflərdə oxu, yazı və dil qaydaları üzrə dərslərdə İKT və digər texnologiyaların vasitəsilə şagirdlərin şifahi nitq fəallığını təmin etmək, ədəbi tələffüz vərdişlərini intensiv qurmaqla dialoq-diskussiya, şaxələndirmə, müşahidə-müqayisə metodlarından daha optimal istifadə edilməlidir;

2) Məzmun xətlərinin hər birinin fəal təlim texnologiyaları ilə qurulması şagirdlərin nitq zənginliyi ilə nəticələnməlidir;

3) İbtidai sinif müəllimlərinin interaktiv metodları nitqyönümlü məqsədlərlə tətbiqini nəzəriyyə və təcrübə sahəsində təkmilləşdirmək üçün elmi-praktik konfranslar, seminar, müşavirələr keçirilməlidir;

4) Azərbaycan dili dərslərinin şagirdlərin nitq və idrak fəallığının yüksəldilməsi məqsədilə qurulması, qabaqcıl müəllimlərin təcrübələrini müntəzəm şəkildə öyrənmək və nəticələrini ümumiləşdirməklə dil tədrisi metodikasını təkmilləşdirmək mümkündür. Sadaladığımız bəzi şərtləri nəzərə almağa ciddi ehtiyac var. Bunları aşağıdakı kimi təsnif etmək olar:

1. Azərbaycan dili dərsliklərində və yaxud müəllim üçün metodik vəsaitlərdə (MMV) motivasiyaların sadə nümunələrdən, məsələn, sual şəkillərindən daha çox istifadə edilməlidir. Anlayışın

çıxarılması, BİBÖ, problem-situasiyanın düzgün qoyulmaması şagirdləri təlim prosesinə qədər yorur. Fikrən yorulma gələcək fəaliyyətə ağırlaşdırıcı təsir göstərir.

2. Motivasiyaların sadə, maraqlı növlərindən yalnız əsas mətn üzrə deyil, dinləmə mətnləri üzrə, o cümlədən dil qaydaları standartlarını reallaşdırmadan öncə tətbiq etmək məsləhətdir.

3. İbtidai sinifdə şagirdlərin əsas mətndən fəlsəfi nəticələr çıxarmaq üzərində işləməsindən çox bilgi və ədəbi tələffüz vərdişlərinə yiyələnmələri üçün yararlı olan fəallaşdırıcı metodlarla çalışmaq daha məqsədəuyğundur.

4. Söz assosiasiyası lüğət ehtiyatının artırılması və yeni sözlərin cümlələrdə işlənməsi ilə nəticələnməlidir.

5. Müəllimlər yeni texnologiyalardan fəallaşdırıcı faktor kimi istifadə edərkən gözlənilən nəticəni və son nəticəni qiymətləndirməyi diqqət mərkəzində saxlamalıdırlar.

6. İbtidai sinif "Azərbaycan dili" dərsliklərinin əsas və dinləmə mətnləri vaxtaşırı yenilənməli, habelə "MMV"lərin dəyişikliyə uyğun işlənib hazırlanması məqsədəmüvafiqdir.

7. Mətnlərdəki nəzm parçalarının əzbər öyrənilməsi və söylənilməsi həm metod kimi işlənməli, həm də standartlarda öz əksini tapmalıdır.

8. Standartlardan istifadə edərkən müəllimlər yaradıcı olmalıdırlar ki, şagirdlərin nitq fəallığı, təfəkkürü təmin edilmiş olsun.

İbtidai siniflərdə Azərbaycan dilindən şagirdlərin təlim fəallığını gücləndirməkdə bütün məzmun xətləri geniş didaktik imkanlara malikdir. I-IV sinif şagirdləri bu fənnin kurikulumunun tələbləri əsasında səsi, sözü, cümləni və mətni düzgün, sürətli, ifadəli oxumaq vərdişlərinə, habelə mətnin məzmununu təhlil etmək, normalara uyğun şəkildə danışmaq və yazmaq vərdişlərinə yiyələnməlidirlər. Bu mənada təlim işi rabitəli mətnlərdən başlanır. Eyni zamanda dil qaydaları məzmun xəttinin təlim əhəmiyyətini də azalda bilməz.

**Dissertasiyanın əsas elmi-nəzəri müddəaları və nəticələri aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. İnteraktiv təlim üsulları fəallığı artırır // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, –2003, №4, –s. 177-178.

2. Təlim prosesində fəallaşmanın əhəmiyyəti // –Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2005, – s. 181-184.

3. Fəal interaktiv təlim metodunun imkanları // –Bakı: Pedaqoji Universitetinin Xəbərləri, –2011, №3, – s. 388-389.

4. Yeni təlim metodu ilə yanaşmanın ana dili dərslərində rolu // Doktorantların və Gənc tədqiqatçıların XV Respublika Elmi Konfransının materialları, –Bakı, –2011, –s.131-133.

5. İnteraktiv təlim metodunun məktəb təcrübəsində vəziyyəti // Azərbaycan Respublikasının Təhsil Nazirliyi Doktorantların və Gənc tədqiqatçıların XVII Respublika Elmi Konfransının materialları, I cild – Bakı: – 18-19 noyabr, –2012, – s.312-313.

6. Fəal interaktiv təlim metodunun praktik əhəmiyyəti // “Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innovasiyalar” II Beynəlxalq Elmi konfransın materialları, –Bakı: – 26-28 noyabr, –2012, –s. 235-238.

7. İnteraktiv təlim metodunun tətbiqində qrup işinin təşkili // Doktorantların və Gənc tədqiqatçıların XVI Respublika Elmi Konfransının materialları, Bakı, – 2012, –s.334-336.

8. İnteraktiv təlim metodunun üsullarla tətbiqi // Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş “Müəllim hazırlama siyasəti və problemləri” mövzusunda Beynəlxalq Simpozium, – Bakı: – 03-04 may, – 2013, – s. 83-84.

9. İnteraktiv təlim metodu müasir dərsin tələblərinə cavab verir // Azərbaycan Respublikasının Təhsil Nazirliyi Doktorantların və Gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları, – Bakı: –19-20 dekabr, – 2013, – s.381-383.

10. Kurikulum islahatının əhəmiyyəti və növləri // Azərbaycanşünaslığın aktual problemləri V Beynəlxalq Konfransı, - Bakı: Slavyan Universiteti, – 05-07 may, – 2014, – s. 432-435.

11. Təhsil məzmununun təkmilləşdirilməsində Kurikulumun yaranma zəruriyyəti // Azərbaycan Respublikasının Təhsil Nazirliyi Doktorantların və Gənc tədqiqatçıların XIX Respublika Elmi Konfransının materialları, – Bakı: – 7-8 aprel, –2015, – s.282-284.

12. Kiçik yaşlı məktəblilərdə türkçülük ideyasının formalaşmasında Bəxtiyar Vahabzadə yaradıcılığının rolu // Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinə həsr olunmuş “İnsan və zaman”

mövzusunda Respublika elmi konfransının materialları, –Bakı: ADPU, –2015, –s. 280.
13. Ana dili dərsliklərinin kurikulum üzrə təhlili // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı, – Bakı: Qafqaz Universiteti, – 17-18 aprel, –2015, –s.1270-1272.
14. İbtidai siniflərdə milli vətənpərvərlik hissinin aşılanması (Bəxtiyar Vahabzadənin "Ana dili" şeiri əsasında) // Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin keçirdiyi Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinə həsr edilmiş "Milli dəyərlər və istiqlal uğrunda mübarizələr" adlı ümumrespublika konfransının materialları, –Bakı: Elm və Təhsil, – 4 iyun, – 2015, – s. 59-63.
15. "Kitabi-Dədə Qorqud" dastanının milli-mənəvi keyfiyyətlərinin ibtidai siniflərdə aşılanması // "Kitabi-Dədə Qorqud" və dünya eposçuluq ənənəsi Beynəlxalq elmi konfransının materialları, – Sumqayıt, – 16-17 dekabr, – 2015, –s. 149-151.
16. Необходимость появления курикулума и применение методов интерактивного обучения // – Алматы: Казахский национальный педагогический университет имени Абая Вестник, – 2015. №1(45), – s. 61-65.
17. Ana Dilinin Eğitimi Zamanı İnteraktif Eğitim Metodunun Uygulama İmkânları // İnoved 2015-in təşkilatı dəstəyi ilə 26-28 oktyabr Türkiyənin İzmir şəhərində Dokuz Eylül Universitetində "Təhsildə İnnovasiyalar və əlverişli təcrübələr" adlı Beynəlxalq Konfrans materialları, – 2016, – s.251-260.
18. Ana Dilinin Eğitimi Zamanı İnteraktif Eğitim Metodunun Uygulama İmkânları // Western Anatolia journal of educational science. İnoved. – 2016. Özel sayı, – s. 251-260.
19. İbtidai sinif dərslikləri inteqrasiya tələbini ödəyir // – Bakı: "Dil və Ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. №2 (102), – s. 362-367.
20. Kiçik yaşlı məktəblilərdə İslami dəyərlərin aşılanması (dərsliklər və dərs vəsaitləri əsasında) // "İslam həmrəyliyi elm və təhsildə: hədəflər və çağırışlar" Respublika elmi konfransı. – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, – 14 aprel, – 2017, – s.160-164.

21. Oxu mətnlərinin tədrisində pedaqoji texnologiyanın rolu // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Bakı: Bakı Mühəndislik Universiteti, – 05-06 may, – 2017, – s.915-917.

22. Tədris prosesində fənn məzmunu standartlarının tətbiq edilməsi // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev irsi: Müasir dövrdə İslam Həmrəyliyi" mövzusunda Beynəlxalq elmi-praktik konfransı, – Bakı: Odlar Yurdu Universiteti, – 10 may, – 2017, – s. 24-25.

23. Təlimin dialoq-diskussiya metodu ilə fəallaşdırılması // Azərbaycan Respublikasının Təhsil Nazirliyi Doktorantların və Gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransının materialları, – Bakı: – 24-25 oktyabr, – 2017, – s. 148-150.

24. Pedaqoji texnologiyaların mahiyyəti, məzmunu və təlim prosesndə onlardan istifadə // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, – Bakı: Bakı Mühəndislik Universiteti, – 27-28 aprel, – 2018, – s. 1511-1515.

25. Müəllim təcrübəsində ədəbi tələffüz normalarının təzahürü // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Təhsildə tarixilik və müasirlik" mövzusunda X Ümumrespublika elmi-praktik konfransının Materialları, – Bakı: – 08 may, – 2018, – s.41-44.

26. Azerbaycanda müfredat reformunun önemi // – Алматы: Казахский национальный педагогический университет имени Абая Вестник, – 2019. №1(25), – s. 89-95.

27. Eğitim zamanı interaktif metodun uygulama imkânları // Uluslararası 19 mayıs multidisipliner çalışmalar konqresi, – Türkiye: Samsun, – 17-19 Mayıs, – 2019, – s.856-864.

28. Tədrisdə fəallığın təmin edilməsi // Elm və təhsilin aktual problemləri, I beynəlxalq elmi konfransın materialları, – Bakı, – 15 oktyabr, – 2019, – s. 422-430.

29. Tədrisin fənn proqramları (kurikulumlari) əsasında təşkilinin əhəmiyyəti // Avrasiya zirvəsi V Elmi Araşdırmalar və Aktual Problemlər konfransı, – Bakı: Xəzər Universiteti, – 16-19 dekabr, –

2019, – s.209-215.
30. Eğitim zamanı interaktif metodun uygulama imkânları // Uluslararası 19 Mayıs Multidisipliner Çalışmalar Konqresi, - Samsun: İksad Yayın Evi, – 17-19 mayıs, – 2019, – s.182.
31. Müasir təlim prosesinin optimallaşdırılması // Uluslararası Nevruz Kültür ve Medeniyet Konqresi, – Bakü, – 18-22 Mart, – 2020, – s. 29-30.
32. Müasir təlim prosesinin optimallaşdırılması // Uluslararası Nevruz Kültür ve Medeniyet konqresi, Bakü: – 18-22 Mart, – 2020, - s.432-437.
33. İbtidai siniflərdə fənlərarası inteqrasiya (IV sinif Azərbaycan dili və Həyat bilgisi dərslikləri əsasında) // 6th International Euroasia Congress on Scientific Researches and Recent Trends, –Baku, –18-20 May, –2020, – s. 36.
34. Təhsilin optimallaşdırılmasında yeni təlim metodlarının əhəmiyyəti // V Beynəlxalq Novruz Elmi Araşdırmalar Konfransı, – Türkiyə: Antalya, – 17-21 mart, – 2022, – s.150-155.
35. Təhsilə yeni yanaşmalar. New approaches to education // Latın Amerika Uluslararası Bilimsel Kongreleri. Latın American International Confrence on Social Sciences and Humanites- II. – Kolumbiya: Boqoto, –5-7 aprel, –2022, – p.36-40.
36. Pedaqoji prosesdə məqsədəuyğun metod tətbiqinin əhəmiyyəti // V Beynəlxalq Elm və Təhsildə İnnovativ Texnologiyalar Konfransı, – Şamaxı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, – 24-25 may, – 2022, – s.95-99.
37. İnnovasiyaların tətbiqində öyrədənlərin strategiyası. Strategies of learners in implementing innovations // Avrasiya Sosyal ve Ekonomi Araştırmalar Dergisinin düzenlediği ASED, – XI Uluslararasi Sosyal Bilimler Sempozyumu. Lozan: İsveçre, –20-22 Mayıs, – 2023, – s.543-552.

Dissertasiyanın müdafiəsi 16 fevral 2024-cü il tarixində saat 14:00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1000, Bakı, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11.01.2024
Kağız formatı: $60x84^{1/16}$
Həcm: 38202
Tiraj: 100